# Haqsızlığa nöqtə qoymağın nidalı müjdəsi

Düz bir ildir ki, Azərbaycan xalqının, eləcə də vətənimizə rəğbət bəsləyən dost ölkələrdəki insanların dilində möhtəşəm bir dastan dolaşır. Elə bir dastan ki, yaxın, uzaq tariximizdə onun misli, tayı-bərabəri yoxdur. Biz o dastanı hansı adla adlandıra bilərik? Bəlkə Qarabağ dastanı? "Dəmir yumruq" dastanı bəlkə? Bəlkə Ali Baş Komandan dastanı?



Məncə, hər üç ad xalqımızın ötən bir il və üstəgəl 44 günlük savaş ərzindəki qalibiyyət və zəfər təntənəsinə tam şəkildə uyğun gəlir.

İkinci Qarabağ savaşında qazanılmış qələbə o qədər misilsizdir ki, onu yalnız noyabrın 8-də deyil, hər gün əziz tutmaq, onun mənası ilə hər saat qürur duymaq milli ləyaqətimizdir!

8 noyabr 2020-ci il... Məhz bu tarixdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, əmri, milli ordumuzun fədakarlığı, ümumən, xalqımızın birlik qüdrəti ilə 44 günlük ölüm-dirim savaşının yekunu olaraq 30 illik əsarətdən sonra qədim Qarabağ torpaqları yağı düşmənin tapdağından azad edilmişdi.

Prezident İlham Əliyev Şuşada, "Vaqif Poeziya Günləri"nin açılışındakı nitqində söyləyirdi: "Müharibə dövründə bir çoxlarımız, həm bütün Azərbaycan xalqı, o cümlədən də mən dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik. Mən də o cümlədən belə fikirdə idim. Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq və ədalətə nail olmaq üçün çalışmaq lazımdır".

Xalqın haqqını özünə qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün 27 sentyabr 2020-ci ildə Ali Baş Komandanın verdiyi əks-hücum əmri nəinki Azərbaycan, hətta dünya tarixində ən ədalətli qərarlardan biridir. Bu, 30 il ümidlərə bürünərək nə zamansa dədə-baba torpaqlarına qayıdacaqları günü gözləyən insanların gözündə sozalan ədalət çırağını yenidən nurlandırmaq demək idi. Bu, Birinci Qarabağ savaşından ötən 30 il ərzində şəhid olan 20 min insanın qanı uğrunda cihada qalxmaq əmri idi. Bu, səbir kasasının daşmasının bəyan edilməsi, azğın düşməni, namərd işğalçını çıxdığı yuvasına qədər it kimi qovmaq, müqəddəs torpaqlardan murdar düşmən ayağını birdəfəlik kəsmək tapşırığı idi. Dövlət başçısının ədalətli qərarı ilə ordu, xalq ayağa qalxdı. Azərbaycan dövləti ermənilərin heç bir vəchlə məhəl qoymadıqları xəbərdarlıq çağırışlarının ardınca, ədalət, həqiqət anında savaş meydanına atıldı.

Müharibənin təfsilatları haqqında xeyli yazılıb, KİV-də saysız-hesabsız rəylər, fikirlər, təhlillər işıq üzü görüb. Təbii ki, zaman keçdikcə qazanılmış qələbənin tarixi, hərbi, siyasi, mənəvi mahiyyəti, hətta iqtisadi amilləri daha geniş rakursdan əks etdiriləcək. Amma ümumiləşmiş dəyərləndirməni hər zaman aparmaq mümkündür. 2020-ci il 8 noyabr tarixində Qarabağın tacı, Azərbaycanın əziz şəhəri Şuşa ordumuzun əfsanəvi igidləri tərəfindən, demək olar ki, yalın əllə, yüngül silahlarla azad ediləndə məhz o ucalıqdan, Şuşa zirvəsindən vətən səmasından doğulan zəfər günəşi, vətən üfüqlərində qızaran haqq-ədalət işığı açıqaydın göründü!..

Bu, o demək idi ki, Ermənistanın təcavüzkar, işğalçı, terrorist niyyəti və əməlləri səbəbindən öz torpağından didərgin düşən bir milyondan çox insanın, onların ailə, əqrəba birliklərinin haqqı özünə qayıdır. Bu, o demək idi ki, işğal olunmuş 20 faizdən çox torpaqlarımız həqiqi sahiblərinin - azərbaycanlıların ixtiyarına keçir. Bu, haqsızlığa nöqtə qoyulmağın nidalı müjdəsi idi. Bu, dünyanın ən nüfuzlu təşkilatı BMT-nin 1993-cü ildə qəbul etdiyi, icrası kağız üzərində qalan 4 qətnaməsinin yerinə yetirilməsi demək idi - həm də heç bir "sülhməramlı" və yaxud "konfliktoloji" beynəlxalq qüvvənin qatqısı olmadan, Azərbaycan Ordusunun öz gücü, şücaəti, igidliyi, şəhidlik andı, Ali Baş Komandanın qətiyyəti və miqyassız zəkası hesabına! Budur möhtəşəm tarixi hadisənin qısaca adı: Azərbaycanın haqq işi qalib gəlmişdir!

Azərbaycan Prezidenti dövlət rəhbəri olaraq 17 ildən çox müddət ərzində həm ölkəmizdə, həm də dünyanın ən mötəbər kürsülərindən Qarabağ münaqişəsinin yaranma mənbəyi, inkişaf prosesi, Azərbaycan xalqının mübarizəsinin haqlı olduğu, ümid və gözləntilərimiz barədə əsl həqiqətləri dönə-dönə bəyan etmişdi. Son bir il ərzində Azadlığa qovuşan Qarabağ ərazilərini hörmətli Mehriban xanım Əliyeva ilə birlikdə qarış-qarış, ehtiramla ziyarət edərkən, hərbçilər, qazilər, ictimaiyyət nümayəndələri, beynəlxalq təmsilçilər, mediya mənsubları ilə görüşərkən böyük Zəfərin əldə edilməsinin mahiyyətini, səbəblərini də yetkin siyasi düşüncə ilə açıb göstərmişdi.

İllər ərzində ölkədə sabitliyi qoruyub saxlamaq, demokratik prinsiplərə əsaslanmaqla dövlətin sarsılmazlığını təmin etmək, hər bir uğurun ən etibarlı təminatçısı olan iqtisadi bazanı yaratmaq və qüvvətləndirmək, tarixi şəraitin diktəsini nəzərə alıb ordu quruculuğunu ən yüksək səviyyəyə qaldırmaq, xalqın birliyini real əsaslar üzərində möhkəmləndirmək - bütün bunlar milli-hərbi qələbəmizin çoxsaylı səbəblərindən bir qismi - amma əsas qismidir!

Ədalət hissi bu amillər sırasına rəşadətli ordunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin adının yazılmasını da hökm edir və nə yaxşı ki, qədirbilən xalqımız bunu bilir!

Ali Baş Komandan hər dəfə bir bölgənin, döyüş məntəqəsinin azad olunduğunu xalqa, eyni zamanda dünya ictimaiyyətinə çatdırarkən sanki, millətin 30 illik yarasının ağrıları üzərinə məlhəm çəkirdi.

Ədalətsiz düşmənlə apardığımız ədalətli savaş, qazanılan tarixi nailiyyət, ordumuzun şücaəti, xalqımızın sıx birliyi, xüsusilə "dəmir yumruq" əməliyyatı və yekunda böyük Qələbə paradı, həqiqətən də, heyrətamizdir! Məhz bu zəfər yürüşündə xalqımız hərb və idrak silahı ilə sülhə nail olmuşdur!

Qələbəmiz böyükdür! Zəfərimiz şanlıdır!

Azərbaycanın yenilməz ordusuna Qələbə çox yaraşır! İkinci Qarabağ savaşı zamanı İlham Əliyevin tarixi çağırışları bir daha təsdiqlədi ki, haqq nazilir, amma üzülmür. İlham Əliyev nümayiş etdirdi ki, ən ekstremal hallarda belə səbir, dözüm, təmkin dövlət rəhbərinin və xalqın ləyaqətidir. O, xalqı mərdliyə, birliyə çağırdı və buna nail oldu. O inandırdı ki, Vətənin taleyindən qiymətli və əziz heç nə ola bilməz. Vətən uğrunda canından keçən oğullar Azərbaycanın şərəfi, namusudur!

Bizi zəfərə aparan döyüş yolunda dost ölkələr də gördük, düşmən ölkələr də, qələbəmizə mənəvi kömək edənlər də oldu, Azərbaycanın hünərindən qəzəblənən, haqsız işğalçıya malmaterial daşıyan da. Məncə, bu savaşda sınaqdan çıxan ən önəmli məziyyətlərdən biri də Türkiyə - Azərbaycan qardaşlığı, özünü sərf-nəzər edən ümumtürk birliyi, Pakistan ölkəsinin timsalında təmənnasız islami dəyərlərin qüdrəti idi...

Qələbəni qazanmaq çətindir, onu qoruyub saxlamaq isə daha böyük hünər istəyir. İndi heç kimə sirr deyil ki, qalib ölkə bir cəbhədən çıxıb, digər bir cəbhəyə atılıb. Reallığın bundan uyğun adı yoxdur: cəbhədən-cəbhəyə! Yəqin ki, dünyanın heç bir guşəsində əmək, iş, quruculuq Azərbaycandakı miqyasda vüsətli ola bilməz; ölkənin 20 faiz ərazisi sıfır səviyyəsindən qurulur. Az müddət ərzində əldə edilən nailiyyətlər barədə xəbərlər hər kəsə yetişib.

Belə bir tarixi mərhələdə düşünürəm ki, hər bir vətəndaş bu müqəddəs günlərdə qan bahasına, xalq, ordu, komandan əzminin vəhdəti ilə qazanılmış böyük zəfərə layiq olmalıdır. Elə buna görə də tarixi şəraitin təlqin etdiyi milli ruhun sırasında olmaq, qalib əsgərin, qurub yaradan vətəndaşın psixoloji üstünlüyünün təminatı üçün bilik, təcrübə və bacarığını ortaya qoymaq "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin də başlıca fəaliyyət xəttidir.

Sonda bu gün yaşadığımız sevincin ən ali mərtəbəsinin qurucuları olan, hər iki Qarabağ savaşı zamanı şəhidlik zirvəsinə ucalan qəhrəmanları ehtiramla anır, bu günü şanlı tarixinə yazan bütün azərbaycanlıları 8 Noyabr - Zəfər Günü münasibətilə təbrik edirik!

***Təranə PAŞAYEVA,***
***psixologiya üzrə fəlsəfə doktoru, "Loqos" PNİM-in rəhbəri***

Azərbaycan. - 2021.- 11 noyabr.- S.15